# GÖYƏRÇİN

İSSN-0207-4710
2012-ci il
3





Hekayə



Şeir



Nağıl

RAFİQ YUSİFOĞLU

## 5 Mart – Bədən tərbiyəsi və idman günü

### AZƏRBAYCAN İDMANI

Bizim idmançılara
Hamı ümid bəsləyir.
Vətən eşqi onları
Zəfərlərə səsləyir.

Azərbaycan övladı
Pələng kimi yarışır.
Azərbaycan oğluna
Qalibiyyət yaraşır.

Biləyində el gücü,
Ürəyində fərəhdi.
Sağlam yaşamaq üçün
Bizə idman gərəkdi.

İgidlərimiz varsa,
Sönərmi çırağımız?
Dünyanın hər yerindən
Gəlir xoş sorağımız.

Qəlbimizi titrədir
Qalibiyyət nidası.
Zəfər marşına dönür
Himnimizin sədası.

Uzaq ellərdən gəlir
Yurdumuzun sorağı.
Zirvələrə ucalır
Azərbaycan bayrağı…



## 8 Mart – Beynəlxalq qadınlar günü

### MƏNİM ANAM

Hər gülün öz təravəti,
Hər çiçəyin öz ətri var.
Mənim mehriban anamın
Nəfəsində yaz ətri var.

O güləndə qəlbim gülür,
Artır yaşamaq həvəsim.
Gəz dünyanı qarış-qarış,
Anamın yoxdur əvəzi.

Ürəyi safdır, təmizdir,
Bulaq kimi durudur o.
Evimizin yaraşığı,
Gözümüzün nurudur o.

O, bizə layla çalanda
Adamın yuxusu gəlir.
Ana əli dəyən yerdən
Gül-çiçək qoxusu gəlir.

Yanaqları elə bil ki,
Təzə açılan çiçəkdi.
Anam hamıdan gözəldi,
Anam hamıdan qəşəngdi…

## 21 Mart – Novruz bayramı

### NOVRUZ TONQALLARI

Çatıb novruz tonqalları
İlk baharı gözləyirik.
Biz günəşə ocaqlarla
Kömək etmək istəyirik.

Rəssam
Fəxriyyə



### YAŞIL İŞIQ

Ağaclara baharın
İlıq nəfəsi dəycək,
Budaqlarda yarpaqlar
Yandı yaşıl işıq tək.

Tez ol, tez ol, əzizim,
Bizi səsləyir bahar.
Açılıb meşələrin
Qoynuna gedən yollar…

### YAŞIL ALOV

Yaz gəlir, tumurcuqlar
Budaqları bəzəyir.
Onlar kibrit çöpünün
Kükürdünə bənzəyir.

Bu çöplər alışanda
Çox gözəl görünəcək.
Quru meşə yamyaşıl
Alova bürünəcək…

## 23 Mart – Sinoptiklər günü (Hidrometroloji proqnozlar günü)

### HAVA NECƏ OLACAQ

Sinoptiklər əvvəldən
Xəbərdar edir bizi:
-Sabah yağış yağacaq,
Tutqundur göyün üzü.

Yoxsa biz nə bilərdik
Hava necə olacaq?
Uçuşan buludların
Gözü nə vaxt dolacaq?

Əvvəldən bilərdikmi
Qar yağacaq, ya dolu?
Leysanmı ələnəcək,
Selmi basacaq yolu?

Göydəki buludların
Gözündə gilə varmı?
Hansı külək əsəcək,
Xəzrimi, gilavarmı?

Hava necə olacaq? –
Soyuqmu, ya bürkümü?
Nazik paltar geyinim,
Yoxsa qalın kürkümü?

Güllər solar, buludlar
Boşalmasa, dolmasa.
Yəqin çaşbaş qalardıq
Sinoptiklər olmasa.

Əvvəldən biliriksə
Yağış olacaq, quraq,
Gərək işlərimizi
Havaya uyğun quraq…

### QARANQUŞUN DÖŞÜNDƏ

Onun zərif köynəyi
Gör necə saralıbdır?
Günəşin işığından
Elə bil nur alıbdır.

Onun zərif köynəyi
Gör necə saralıbdır?
Günəşin işığından
Elə bil nur alıbdır.

Çiçəklərin dalınca
Budaqlara bar gəlir.
Qaranquşun döşündə
Yurduma bahar gəlir…



# AYAZ VƏ MİRVARİ

*Əfqan nağılı*






Bir dəfə padşah Mahmud Qəznəvi əlində gözəl bir mirvari adamların qarşısına çıxdı. O, mirvarini vəzirlərindən birinə verib soruşdu:

-Sənin fikrincə, bu mirvarinin qiyməti neçədir?

- Hökmdarım, - vəzir cavab verdi. - Əgər desəm ki, milyon, yenə bu mirvari ilə müqayisədə az olacaq.

Padşah ona əmr elədi:

-Həmin mirvarini sındır!

-Padşahımızın xəzinəsindən bircə manatın azalması belə mənə böyük dərd olar. Bu mirvarini sındırmağa heç əlim gələrmi?

Padşah dedi:

-Yaxşı, görürəm ki, sən xeyirxah adamsan.

O, mirvarini alıb vəzirə başqa bir hədiyyə verdi. Bir neçə gündən sonra padşah yenə saray adamlarını öz başına topladı. Həmin mirvarini əmirlərdən birinə verib soruşdu:

-De, görüm, bu mirvarinin qiyməti neçədir?

-Əziz hökmdarım,- əmir şirin dilini işə salıb dedi. - Mənə elə gəlir ki, bu mirvari padşahlığın yarısına dəyər.

- Onda bu mirvarini sındır!-Padşah əmr elədi.

Əmir baş əyib dedi:

- Canım sənə qurban olsun, hökmdarım. Bu gözəl mirvarini yalnız onun qiymətini, dəyərini bilməyənlər sındıra bilər. Belə gözəl mirvari bir də çətin ki, tapılsın. Bu qədər qiymətli əşyanı sındırmağa qətiyyən əlim gəlməz. Qoy bu mirvari həmişə sizin xəzinənizdə ulduz kimi şəfəq saçsın!

Söz padşahın çox xoşuna gəldi. Əmr elədi ki, həmin sərkərdəyə çoxlu xələt versinlər. Həmin qayda ilə padşah mirvarini kimə verdisə eyni cavabı aldı. Nəhayət, növbə Ayaza çatdı. Padşah mirvarini ona verib dedi:

-De görüm, bu mirvarinin qiyməti neçədir?

-Mənim hökmdarım, - Ayaz cavab verdi. - Bu hamıya məlumdur. Bu mirvarinin qiyməti çox böyükdür. Mən daha nə deyə bilərəm ki?

-Sındır onu! - padşah əmr elədi.

Söz padşahın ağzından çıxan kimi Ayaz mirvarini bir daşın üstünə qoyub başqa bir daşla onu əzdi. Mirvari xıncım-xıncım ovuldu.

Bunu görən saray adamları hay-haray saldılar. Hamı bir səslə dedi:

-Axmağın biri axmaq, heç adam da belə qiymətli mirvarini sındırardımı? Sən necə də ağılsız və axmaq imişsən!

-Heç adamın xəyalına da gəlmir ki, ağıllı adam belə axmaq iş tutsun!

-Bunu ancaq düşmən eləyə bilərdi!

-Ancaq dəli belə iş tutardı.

Hər ağızdan bir avaz gəldi. Hər kəs öz bildiyi kimi Ayazı qınadı. Hamı sakitləşəndən sonra Ayaz dedi:

-Ey hörmətli əmirlər, sərdarlar, sizin hamınız haqlısınız. Elə qiymətli mirvarini sındırmaq olmazdı. Sizin hamınız düz elədiniz ki, onu sındırmadınız. Ancaq mənim üçün hökmdarımın bircə sözü yüz elə mirvaridən qiymətlidir. Mən onun sözünü necə yerə sala bilərdim, mən onun əmrindən necə çıxa bilərdim? Sizin isə hamınız mirvarini hökmdarımızın əmrini yerinə yetirməkdən üstün saydınız.

Elə bil adamların üstünə su ələdilər. Ayazın sözləri padşahın çox xoşuna gəldi. Əmr elədi ki, onun əmrindən çıxanların boynu vurulsun. Ancaq Ayaz xahiş edəndən sonra padşah onları bağışladı. O gündən Ayaz sarayın ən hörmətli adamına çevrildi.

*Tərcümə edib işləyəni: R.Y.Əliyev*

Rəssam
Fidan